Abbasqulu Nəcəfzadə



6781

**Görkəmli şair Mikayıl Müşfiqin
100 illik yubileyinə**

# İki mahnı

**Fortepiano ilə oxumaq üçün**

Bakı - 2008

ABBASQULU NƏCƏFZADƏ

# İKİ MAHNI

## Fortepiano ilə oxumaq üçün

6781

M.F.Axundov a
Azərbaycan M
Kitabxanası

BAKI – 2008

Redaktor: Əməkdar müəllim, Azərbaycan Milli Konservatoriyasının dosenti, Sumqayıt Müsiqi Texnikumunun direktoru
**Rasim Hüseynəli oğlu Quliyev**

Fortepiano ilə oxumaq üçün işləyəni: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəlliməsi
**Gülşən İsabəy qızı Mirzəbəyli**

Rəyçi: Azərbaycan Milli Konsorvatoriyasının baş müəllimi
**İlham İsmayıl oğlu Nəcəfov**

Kompüter yığımı: **Cəfər Abbasqulu oğlu Nəcəfzadə**

Nəcəfzadə A. **İki mahnı. Fortepiano ilə oxumaq üçün**. Azərbaycan dilində.
Bakı – 2008, «MBM» nəşriyyatı

Məcmuədə sənətşünaslıq namizədi, musiqişünas A.Nəcəfzadənin görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin şeirlərinə bəstələdiyi iki yeni mahnı təqdim edilir. Bu mahnılar peşəkar müğənnilər və müxtəlif kollektivlərin iştirakçıları üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-029-08-6

©A.Nəcəfzadə

## REDAKTORDAN

Tanınmış musiqiçi, təcrübəli ifaçı və müəllim Abbasqulu Nəcəfzadə çoxşaxəli sənətkarlarımızdandır. Elmi axtarışlarla bərabər sənətşünaslıq namizədi A.Nəcəfzadə cənab prezident İlham Əliyevin 16 aprel 2007-ci il Mikayıl Müşfiqin 100 illik yübleyi ilə əlaqədar verdiyi sərəncamdan irəli gələrək bu məcmuəni hazırlamışdır. Məcmuədə ölməz şair Mikayıl Müşfiqin şeirlərinə bəstələnmiş iki mahnı təqdim edilir: «Oxu, sevdiciyim» və «Çal tarı».

«Oxu, sevdiciyim» sevgililərin dueti, yəni deyişməsidir. Bu mətnə vaxtı ilə xalq artisti, bəstəkar Hacı Xanməmmədov müraciət edib. O, mahnını lirik xarakterdə bəstələmişdir. A.Nəcəfzadənin mahnısı isə oynaqlığı ilə diqqəti cəlb edir. Müəllif bu mahnıda «Bayatı-Şiraz» muğamının «Mayə», «Nişibi-fəraz» və «Dilruba» şöbələrinin pərdələrinə uyğun motivlərdən istifadə etmişdir. Mahnı boyu bu şöbələrin intonasiyaları öz əksini tapmışdır. 6/8 ölçüdə bəstələnmiş mahnının nəqəratında Müşfiqin adı tez-tez hallandırılır. Xatırladaq ki, şeirin orjinal mətnində bu söz «ilham» kimi təqdim edilir. Lakin mahnıda həmin sözün Müşfiqlə əvəz edilməsi necə deyərlər, çox uğurlu alınıb.

İkinci mahnı – «Çal tarı» isə lirik xarakterli, 4/4 ölçülüdür. Bu mahnıda «Segah» muğamının «Mayə», «Manəndi-Hisar» və «Manəndi-müxalif» şöbələrinin pərdələrindən istifadə edilib.

A.Nəcəfzadə nəqəratda «Tarın tellərində Kəsmə şikəstə» misrasından sonra klassik zərb muğamlarımızdan olan «Kəsmə şikəstə»nin aparıcı frazasından çox uğurla istifadə etmişdir. Nəqəratda «Tutmuşdum dişimdə» sözünü müəllif «Tutmuşdum qəlbimdə» kimi təqdim edir. Mahnıda belə dəyişiklik düşünürük ki, şeirin ümumi mətninə heç də xələl gətirmir. Əksinə mahnıda axıcılıq yaradır.

Abbasqulu müəllimə yaradıcılıq fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

Xatırladaq ki, Müşfiqin sözlərinə ilk mahnını tanınmış bəstəkar, xalq artisti Əşrəf Abbasov bəstələmişdir. «Qurban olduğum» adlanan bu mahnı 25 may 1959-cu ildə (16154 saylı qeydiyyat kartı) Azərbaycan radiosu üçün lentə alınıb. Mahnı fortepianoda Gülər Rzayevanın[1] müşayiəti ilə ilk dəfə xalq artisti Şövkət Ələkbərovanın ifasında səslənmişdir.

[1] Gülər Əvəz qızı Rzayeva – bəstəkar, xalq artisti Azər Rzayevin həyat yoldaşı.

## MÜŞFİQİN SÖZLƏRİNƏ YAZILMIŞ MAHNILARIN SİYAHISI

Qeyd: Bəstəkarlar bəzən mahnılara ad verərkən şeirin orijinaldakı başlığını dəyişirlər. Bu səbəbdən mötərizədə şeirin orijinaldakı adını təqdim edirik.

1. **«Ana»**
mus: Tamilla Məmmədzadə

2. **«Ana»**
mus: Elçin İmanov

3. **«Arzuya bax, sevgilim» («Yenə o bağ olaydı»)**
mus: Hacı Xanməmmədov

4. **«Arzuya bax, sevgilim» («Yenə o bağ olaydı»)**
mus: Tamilla Məmmədzadə

5. **«Arzuya bax, sevgilim» («Yenə o bağ olaydı»)**
mus: Vasif Adıgözəlov

6. **«Ay qız»**
mus: Rauf Davudoğlu

7. **«Balama qurban» («Üç sağlıq»)**
mus: Xatirə Əhmədli

8. **«Bəxtiyar oda»**
mus: Günay Quliyeva

9. **«Bir də baxsan mənə»**
mus: Nüşabə Muradova

10. **«Bu kəlmənin vurğunuyam...» («Ana»)**
mus: Rəşid Şəfəq

11. **«Çal tarı» («Tarın cavabı»)**
mus: Abbasqulu Nəcəfzadə

12. **«Dilinə düşdü» («Düşdü»)**
mus: Hacı Xanməmmədov

13. **«Dostlar olmasa» («Duyğu yarpaqları»)**
mus: Şəfiqə Axundova

14. **«El mənimdir» («Sındırılan saz»)**
mus: Zeynəb Xanlarova

15. **«Eşqim»**
mus: Oqtay Kazımi

16. **«Ey dost» («Duyğu yarpaqları»)**
mus: Xanım İsmayılqızı

17. **«Əbədi sevgi»**
mus: Hökumə Nəcəfova

18. **«Gecə düşüncəsi»**
mus: Solmaz Hüseynova

19. **«Gözəllik»**
mus: Tamilla Məmmədzadə

20. **«Gözüm düşdü» («Düşdü»)**
mus: Hacı Xanməmmədov

21. **«Gözünə qurban» («Qurban»)**
mus: Hacı Xanməmmədov

22. **«Həyat nadir?»**
mus: Hacı Xanməmmədov

23. **«Həyat sevgisi»**
mus: Eldar Mansurov

24. **«Həyat sevgisi»**
mus: Elçin İmanov

25. **«Xızı dağları» («Sındırılan saz»)**
mus: Xatirə Əhmədli

26. **«Könlümü»**
mus: Tofiq Bakıxanov

27. **«Küləklər»**
mus: Məmməd Cavad

28. **«Küləklər»**
mus: Elza Seyidcahan

29. **«Küləklər»**
mus: Elçin İmanov

30. **«Küsmərəm»**
mus: Süleyman Ələsgərov

31. **«Qəhrəmanlar» («Yeddi aşıq»)**
mus: Rauf Davudoğlu

32. **«Qurban olduğum»**
mus: Əşrəf Abbasov

33. **«Qurban olduğum»**
mus: Hacı Xanməmmədov

34. **«Qurban olduğum»**
mus: Nadir Əzimov

35. **«Lalələr kimi» («Ulduzlar»)**
mus: Kamal

36. **«Maralım» («Maral»)**
mus: Şəfiqə Axundova

37. **«Məhəbbət»**
mus: Əlibaba Məmmədov

38. **«Mil düzü»**
mus: Kənan Şəkiliyev



39. **«Necə əl çəkim?» («Həyat sevgisi»)**
mus: Cahangir Cahangirov

40. **«Necə əl çəkim?» («Həyat sevgisi»)**
mus: Ramiz Mustafayev

41. **«Neçin gəlmədin?»**
mus: Hacı Xanməmmədov

42. **«Nigar»**
mus: Tofiq Bakıxanov

43. **«Oxu, sevdiciyim» («Oxu»)**
mus: Hacı Xanməmmədov

44. **«Oxu, sevdiciyim» («Oxu»)**
mus: Abbasqulu Nəcəfzadə **(duet)**

45. **«Oxu, tar!» («Tar»)**
mus: Səid Rüstəmov

46. **«Oxu, tar!» («Tar»)**
mus: Ramiz Mirişli **(duet)**

47. **«Oynaq atım» («At»)**
mus: Elnarə Dadaşova

48. **«Oynaq atım» («At»)**
mus: Rəşid Şəfəq

49. **«Sahilə gəl» («Dəvət»)**
mus: Vasif Adıgözəlov

50. **«Sahilə gəl» («Dəvət»)**
mus: Rəşid Şəfəq

51. **«Sazım mənim»**
mus: Rauf Davudoğlu

52. **«Sənə qurban»**
mus: Ələkbər Tağıyev

53. **«Səni gözlər»**
mus: Əlibaba Məmmədov

54. **«Səninçün»**
mus: Ələkbər Tağıyev

55. **«Səninçün»**
mus: Dilarə Kərimova

56. **«Sənin gözlərin»**
mus: Hacı Xanməmmədov

57. **«Sənin gözlərin»**
mus: Tamilla Məmmədzadə

58. **«Sənin gülüşlərin»**
mus: Ələkbər Tağıyev

59. **«Söylə»**
mus: Əlibaba Məmmədov

60. **«Şirin qız»**
mus: Hökümə Nəcəfova

61. **«Şirin qız»**
mus: Oqtay Kazımi

62. **«Teleqraf telləri»**
mus: Gülşən Mirzəbəyli

63. **«Telin işidir» («İşidir»)**
mus: Nazim Quliyev

64. **«Vətən kimidir» («Kimidir»)**
mus: Nazim Quliyev

65. **«Yadıma düşdü»**
mus: Hacı Xanməmmədov

66. **«Yadıma düşdü»**
mus: Tofiq Bakıxanov

67. **«Yağış» («Yağış yağarkən»)**
mus: Elza Seyidcahan

68. **«Yarandım» («28 Aprel»)**
mus: Səid Rüstəmov

69. **«Yaşa könül»**
mus: Hacı Xanməmmədov

70. **«Yaşa ürəyim» («Ürək»)**
mus: Əlibaba Məmmədov

71. **«Yaşa ürəyim» («Ürək»)**
mus: Şəfiqə Axundova

72. **«Yenə o bağ olaydı»**
mus: Elza Seyidcahan

73. **«Yenə o bağ olaydı»**
mus: Elçin İmanov

Siyahıdan göründüyü kimi, hələlik M.Müşfiqin ayrılıqda 50-dən artıq şeirinə mahnılar bəstələnib. Bəzən eyni şeirə bir neçə müxtəlif səpkili mahnılar bəstələnmişdir. Ümumiyyətlə, Müşfiqin şeirlərinə yazılmış mahnıların sayı 70-i ötmüşdür.

Hələlik Müşfiq şeirlərinə bəstələnmiş mahnıların ən yüksək, rekopd göstəricisi Hacı Xanməmmədova məxsusdur: 11 müxtəlif səpkili mahnı.

**Rasim Quliyev**

# Oxu sevdiciyim

**Abbasqulu Nəcəfzadə**









10
si O - xu, sev - di - ci - yim, öz hə - və - sin - lə
Müş - fiq qa - nad - la - nır sə - nin sə - sin - lə
1.
2.
11
lə O - xu, qüv - vət gəl - sin şe - rə sə - nə -
12
tə Kön - lü - mün qu - şu - nu gə - tir hey - rə -


13
tə
14
O - xu, qüv - vət gəl - sin şe - rə sə - nə - tə
15
Kön - lü - mün qu - şu - nu gə - tir hey - rə - tə
16
Ü - rək köv - rək - lə - şir sən o - xu - yan - da,






**«OXU, SEVDİCİYİM!» duet**

Oğlan: Nəğməndə oynasın sellərin səsi,

Qız: Dan yerindən əsən yellərin səsi.

Nəqərat:

Oğlan: Oxu, sevdiciyim, öz həvəsinlə!

Müşfiq[1] qanadlanır sənin səsinlə.

Qız: Oxu! Qüvvət gəlsin şeirə, sənətə,

Könlümün quşunu gətir heyrətə!

Oğlan: Ürək kövrəkləşir sən oxuyanda,

Qız: Sən də dinləsəydin mən oxuyanda!

Birgə: Oxu, sevdiciyim, öz həvəsinlə!

Müşfiq qanadlanır sənin səsinlə.

***

Qız: Titrəyən, çağlayan nəğmən olaydım,

Oğlan: Ürəyindən qopan səs mən olaydım.

Nəqərat

***

Oğlan: Gülləri qoxlayan bir rüzgar kimi,

Qız: Qumları oxşayan dalğalar kimi.

Nəqərat

---

[1] Orijinalda bu söz «ilham» kimi verilib.

# Çal tarı

Abbasqulu Nəcəfzadə













## «ÇAL TARI»

Dostumun əlində bir sızlayan tar,
Sərpirdi ətrafa şəffaf dalğalar.
Nəqərat:
Tarın tellərində «Kəsmə şikəstə»,
Tutmuşdum qəlbimdə[3] bir tatlı bəstə.
O, həvəslə çalır, mən oxuyurdum,
Üz tutub dostuma böylə diyordum:
Çal, mizrab toxunsun sarı tellərə.
Çal, səsin bənzəsin coşqun sellərə.

***

Çal, tarı dindirib inlətəlim, çal.
Çal, tara bir şeir söyləyəlim, çal.
Nəqərat

M.F.Axundov

[3] Orijinalda bu söz «dişimdə» kimi verilib.

ABBASQULU NƏCƏFZADƏ

# İKİ MAHNI

## Fortepiano ilə oxumaq üçün

Yığılmağa verilmisdir: 12.02.08
Çapa imzalanmışdır: 15.06.08
Tiraj: 1000, ş.ç.v. 2
MBM mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur

**Nəcəfzadə Abbasqulu İsmayıl oğlu**



1 dekabr 1957-ci ildə Xızıda ziyalı ailəsində anadan olmuşdur.

Hazırda Azərbaycan Milli Konservatoriyası «Milli musiqi alətlərinin araşdırılması» elmi-tədqiqat laboratoriyasının rəhbəri, «İnstrumental muğam» kafedrasının müəllimidir.

A.Nəcəfzadə 53 saylı Orta Ümumtəhsil və 16 saylı Uşaq Musiqi Məktəblərini bitirdikdən sonra təhsilini Sumqayıt Musiqi Texnikumunda davam etdirmiş, daha sonra Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını kamança və dirijor ixtisasları üzrə bitirmişdir. 1976-cı ildən pedaqoji fəaliyyətə başlayan A.Nəcəfzadə həmçinin müxtəlif ansamblların rəhbəri və ifaçısı olmuşdur. Onun rəhbərlik etdiyi ansambllar («Arzu» ansamblı 1980-1981-ci illərdə «Oxu, tar!», «Meyxana» ansamblı 1988-ci ildə «İstedadlar axtarırıq», «Oğuzlar» ansamblı 2000-2008-ci illərdə «İstedad») bir sıra müsabiqələrin qalibi olub.

A.Nəcəfzadə «Tələbə və Gənclərin XII Ümumdünya festivalı»nın diplomantı (1985), xalq yaradıcılığının Ümumittifaq baxış-müsabiqəsinin laureatı (1986), Gənclərin 1-ci Zaqafqaziya festivalının qalibi olub (1986-cı il).

Uzun illər Az.TV-də folklorumuzu təbliğ edən A.Nəcəfzadə «Dastan» ansamblının musiqi rəhbəri olmuşdur. Onun Az.TV-də aparıcısı olduğu «Yallı» verilişinin ölkəmizin mədəni həyatında böyük maarifləndirici əhəmiyyəti vardır.

A.Nəcəfzadə Mədəniyyət Nazirliyi və «Vətən» cəmiyyətinin xətti ilə bir sıra ölkələrdə mədəniyyətimizi layiqincə təbliğ etmişdir. Bəzi xarici ölkələrin mətbuatında A.Nəcəfzadənin yaradıcılığı və çıxışları ilə bağlı məqalələr yazılıb.

A.Nəcəfzadə 2006-cı ildə «Azərbaycan nəfəs alətləri (orqanoloji-tarixi tədqiqat)» adlı dissertasiya işini uğurla müdafiə edərək sənətşünaslıq namizədi alimlik dərəcəsi almışdır.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü və «Müşfiq» xatirə mükafatı laureatıolan A.Nəcəfzadə 100-dən artıq məqalənin, 4 kitabın, 2 tədris proqramının müəllifi və 2 əlyazmanın tərtibçisidir.

A.Nəcəfzadə 30-dan artıq mahnı bəstələyib. Bu mahnıların əksəriyyəti Az.TV-nin fonotekasında tanınmış müğənnilərin ifasında saxlanılır.